# Ulu Öndər xalqımızın müstəqillik ideallarını gerçəkləşdirdi

***Bu** gün təkcə Azərbaycanın deyil, bütün dünyanın qəbul etdiyi bir həqiqət var: Heydər Əliyev olmasaydı, bugünkü müstəqil müasir Azərbaycan da olmayacaqdı. Azərbaycan xalqının ümummilli lideri, türk dünyasının tanınmış və nüfuzlu siyasi xadimlərindən biri olan Heydər Əliyevin tarixdə rolu o qədər böyükdür ki, onun ömür yolunu, idarəçilik fəlsəfəsini, liderlik təcrübəsini və səriştəsini tarixçilər və siyasi şərhçilər hələ uzun müddət araşdıracaq və öyrənəcəklər. Çünki Heydər Əliyevin siyasi səriştəsi və diplomatik təcrübəsi nəinki öz əhəmiyyətini qoruyub saxlamış, hətta ildən-ilə daha da aktuallaşmış, liderlik məktəbinin qiymətli dərsliyinə çevrilmişdir.*

Azərbaycanın ağır günlərində, 1993-cü illərdə Gəncə şəhərində həkim işləyirdim. Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gələndən bir müddət sonra Bakıdakı gərginlik tədricən Gəncəyə keçməyə başlamışdı. 1993-cü il iyunun əvvəllərində şəhərdə vəziyyət son dərəcə ağırlaşmışdı. Surət Hüseynovun silahlı dəstələri iyunun 4-də Azərbaycan Müdafiə Nazirliyinin Gəncədə yerləşən hərbi hissələrini tərk-silah edib şəhəri tam nəzarətə götürmüşdülər. Gəncənin ziyalıları bildirirdilər ki, AXC hakimiyyətinin idarəçiliyi ölkəni vətəndaş qarşıdurmasına aparır. Hamı ümidini Naxçıvana, Heydər Əliyevə bağlamışdı. İyunun ilk ongünlüyündə hökumətin silahlı qüvvələri Gəncəni mühasirəyə almışdılar. Rəsmi Bakı Gəncəni havadan bombalayacaqları haqqında ultimatumlar göndərirdi. Bütün Azərbaycan gərginlik içində idi. Nəhayət, 1993-cü il iyunun 13-də Gəncədə ilk atəş səsləri eşidildi. Bu, dəhşət idi. Azərbaycanı məhvə sürükləyir, qardaş qırğınına yol açırdılar.

AXC hakimiyyəti iyunun 14-ə qədər bir neçə dəfə Gəncəyə hərbi müdaxiləyə cəhd etdi. Lakin heç nəyə nail olmadı. Bu müddətdə isə bütün Azərbaycan ayağa qalxıb ulu öndər Heydər Əliyevin Bakıya gəlməsini və çıxılmaz vəziyyətə düşən AXC-dən hakimiyyətin ona verilməsini tələb edir, xalq təkidlə öz liderini ölkəni xilas etməyə çağırırdı. AXC hakimiyyəti bütün vasitələrinin tükəndiyini və iflasa uğradığını dərk edib ümummilli lider Heydər Əliyevi Bakıya gətirmək üçün təyyarə göndərdi. Heydər Əliyev Bakıda bəyan etdi ki, o Gəncəyə gedib vəziyyətlə yerində tanış olub, sonra öz qərarını verəcək.

Heydər Əliyev Gəncədə baş verən hadisələri öyrəndikdən sonra Milli Məclisin tribunasından hakimiyyətin törətdiyi hadisələri sərt tənqid etdi. Elə həmin iclasda ulu öndər Ali Sovetin sədri seçildi və bir neçə gündən sonra Prezident səlahiyyətlərini icra etməyə başladı.

Ümummilli lider hakimiyyətə gələndən sonra ölkədə gərginlik tədricən azalmağa, insanlar rahat nəfəs almağa başladılar. Ölkə dağılmaq və məhv olmaq təhlükəsindən qurtuldu. Belə bir vaxtda məsuliyyəti üzərinə götürmək, böyük ustalıqla dövləti böhrandan çıxarmaq hər adama nəsib olmur. Amma tarixin bu sərt dönüşündə Tanrı Heydər Əliyevi ölkəmizə Xilaskar kimi göndərmişdi. Dahi şəxsiyyət dağılmaqda olan ölkəni xilas edib, xalqı bir yumruq kimi ətrafında birləşdirdi. Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında müstəsna xidmətləri çoxdur.

Xalqın etimadına və dəstəyinə arxalanan Heydər Əliyev hakimiyyət uğrunda "ölüm-dirim savaşına" qoşulan bütün qüvvələrə tam aydın bir mesaj verdi: **dövlət bürokratiyanın, özünü siyasi müxalifət elan etmiş heç bir siyasi qüvvənin şəxsi mülkiyyəti deyil. Dövlət xalq üçündür və xalqa xidmət etməlidir. Bu, yüksək dövlətçilik təcrübəsinin ali nümunəsi idi.**

Heydər Əliyev hakimiyyətinin on illik mərhələsində xalqa xidmət edən demokratik dəyərlərə və qanunlara söykənən bütün dövlət təsisatları yaradıldı və bölgüsü aparılmış hakimiyyətin iyerarxiyasının səlahiyyət çərçivələri müəyyənləşdirildi və bu, hakimiyyətin əsas vəzifələrinin - vətəndaş hüquq və azadlıqlarının, fikir və söz azadlığının, şəxsi mülkiyyətin qorunmasının təmin olunması Əsas Qanunla möhkəmləndirildi.

İqtisadiyyat tam yeni, dünyada özünü doğrultmuş bir müstəviyə keçirilərək ən yaxın dövr üçün strateji vəzifələr müəyyənləşdirildi.

Heydər Əliyev 10 illik hakimiyyəti dövründə 200 ildən artıq həllini gözləyən bir çox problemləri yoluna qoydu. Heydər Əliyevin böyüklüyü və dövlətçilik fəlsəfəsinin əzəməti onda idi ki, o bütün bunları ardıcıllıqla deyil, eyni zaman çərçivəsində paralel şəkildə gerçəkləşdirirdi.

Məhz Heydər Əliyevin müstəsna xidmətləri sayəsində Azərbaycan müstəqil siyasəti olan suveren dövlətə çevrildi. SSRİ dağılandan sonra keçmiş ittifaqın ərazisində bir çox dövlətlər yarandı, ancaq onların heç də hamısı Heydər Əliyevin qurduğu Azərbaycan kimi milli maraqlara xidmət edən və müstəqil siyasət yürüdən dövlət ola bilmədi. Azərbaycan bu gün müasir dünya xəritəsində nadir ölkələrdəndir ki, öz tolerantlıq, çoxmillətlik, çoxkonfessiyalılıq koloritini qoruyub saxlaya bilib, heç bir hərbi bloka qoşulmadan regionun güclü dövləti kimi bütün ölkələrlə bərabər səviyyəli münasibətlər qurub.

Heydər Əliyev Azərbaycanın güclü dövlətçilik xəttini, siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, milli dirçəliş və inkişafın əsasına çevrilmiş azərbaycançılıq məfkurəsi ideyasının banisidir. Məhz Heydər Əliyev ölkəsinin dünyəvi dəyərlərinin əsaslarını qoydu. Hazırda Azərbaycan sırf dünyəvi xarici və daxili siyasət yürüdən dövlətdir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Heydər Əliyev siyasəti uğurla davam etdirilir. 2020-ci ildə 44 günlük müharibədə qazandığımız tarixi Zəfərlə ulu öndərin ən böyük arzusu həyata keçdi. Azərbaycanın nüfuzu durmadan artır, xalqın rifahı yaxşılaşır. Heydər Əliyevin nəhəng rolu təkcə doğma Azərbaycanda yüksək qiymətləndirilmir. Dövrümüzün bir çox görkəmli xadimləri onun haqqında dərin ehtiramla danışırlar.

Ümummilli lider Heydər Əliyevin bütün bu xidmətlərilə bağlı öz xatirələrimi və araşdırmalarımı dahi şəxsiyyət 100 illiyinə həsr etdiyim "Müstəqilliyimizin Xilaskarı" adlı kitabımda daha geniş və müfəssəl şərh etmişəm. Kitabda ulu öndərin çoxşaxəli siyasi-ictimai fəaliyyəti, milli mənliyimizi qoruyan mədəni siyasətini müxtəlif yöndən konkret faktlarla göstərməyə çalışmışam. Amma Heydər Əliyev şəxsiyyətinin miqyası, əzəməti, onun misilsiz xidmətləri yüzlərlə belə kitaba sığmaz. Artıq neçə illərdir ki, ulu öndərin xalqımızın qəlbində əbədi məskən salmış və dillər əzbəri olan "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı müdrik dövlətçilik fəlsəfəsi kimi tarixin sınağından uğurla çıxır.

**İradə HACIYEVA,**
**tibb üzrə fəlsəfə doktoru,**
**Binəqədi Rayon Qadınlar Şurasının sədri.**